**MƏHƏRRƏM ZÜLFÜQARLI**

# Azərbaycan əleyhinə siyasətə qarşı N.Nərimanovun mübarizəsi

# (1920-1925-ci illər)

**Kitab Azərbaycan Turizm və Menecment Universiteti Elmi Şurasının 30 aprel 2019-cu il tarixli iclasının ( Protokol № 6) qərarı ilə nəşr olunub**

BAKI 2019

**Müəllif: t.ü.e.d.,prof. Məhərrəm Zülfüqarlı**

**Elmi redaktor: t.ü.e.d.,prof., Dövlət Mükafatı Laureatı Kərim Şükürov**

**Rəyçilər: f.ü.e.d., prof. Zaur Bağırov**

**t.e.n., dos. Bahadır Bilalov**

Mündəricat

Ön söz

1. N.Nərimanovun ictimai-siyasi fəaliyyətinin tarixşünaslığı
2. Sovet rejimi daxilində N.Nərimanov tərəfindən Azərbaycanın dövlət müstəqiliyinin müdafiəsi
3. N.Nərimanov milli və dini dəyərlərin müdafisiçisi rolunda
4. N.Nərimanovun imam Hüseynlə bağlı fikirləri

Nəticə

*Bu kitab görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanovun 1920-1925-ci illərdə kommunist rejiminin Azərbaycana əleyhinə yeritdiyi siyasətə qarşı mübarizəsindən bəhs edir. Kitabda N.Nərimanovun fəaliyyətinin tarixşünaslığı qısa şəkildə araşdırılıb, onun Azərbaycanın müstəqilliyi, milli və dini dəyərlərin müdafiəsi sahəsində fəaliyyəti tədqiq olunub. Kitab "Azərbaycan tarixi" fənninin tədris olunduğu ali  məktəblərin tələbələri,magistrları, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulub*

## Ön söz

Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Nəriman Nərimanov digər fəaliyyət sahələri ilə yanaşı həm də sovet hakimiyyətinin rəhbərlərindən biri olub. Kitabın adında onun kommunist reyiminə qarşı mübarizəsi fikri bəziləri üçün qəribə görünə bilər. Lakin həqiqətən də bu belədir. Azərbaycan xalqı böyük xalqdır ki, heç bir zaman bolşevik işğalı ilə barışmamış, ona qarşı daim mübarizə aparmışdır. Bu mübarizədə bəzi görkəmli azərbaycanlı kommunist rəhbərlərin iştirak etməsi təqdirəlayiqdir. Onlar çətinliklə də olsa Moskvanın Azərbaycan əleyhinə yeritdiyi siyasətə müxtəlif vasitələrlə müqavimət göstərmişlər. Sözü ilə əməli uyğun gəlməyən, yalançı vədlərlə öz siyasətini pərdələməyə çalışan kommunist rejiminin iç üzünü açaraq onu ifşa edənlər arasında kommunist rəhbərlərində olması onların öz xalqlarına vicdanla xidmət ediyini göstərir.

N.Nərimanovun kommunist reyiminə qarşı apardığı bu mübarizəni sonralar digər rəhbərlər davam etdirmişlər. Bunlardan Mir Cəfər Bağırovun, İman Mustafayevin, Mirzə İbrahomovun, Şıxəli Qurbanovun və Heydər Əliyevin adını qürur hissi ilə çəkmək olar. Sovet hakimiyyəti illərində 30 ildən artıq yüksək vəzifələrdə çalışmış Heydər Əliyev Azərbaycan xalqının gələcək inkişafı üçün mühüm işlər həyata keçirmişdir. 1987-ci ildən sonra isə kommunist rejiminin anti-azərbaycan siyasətinə qarşı açıq şəkildə Moskvada başladığı mübarizəni, öz vətənində layiqincə davam etdirərək rejimə qarşı mübarizədə xalqla birlikdə olmuş, rejimin süqutunda və Azərbaycan Respublikasının dövlət müstəqiliyinin bərpasında müstəsna rol oynayıb.

Sizə təqdim olunan bu kitabda görkəmli ictimai-siyasi xadimi Nəriman Nərimanovun kommunist rejiminə qarşı mübarizəsi tarixi faktlar əsasında tədqiq edilib.

XI ordunun işğalından sonra, 16 may 1920-ci ildə Bakıya gələrək Azərbaycan İnqilab Komitəsinin sədri təyin olunan N.Nərimanov 1920-1925- ci illərdə partiyadaxili mübarizədə rus, erməni və onların əlaltıları olan yerli bolşeviklərin güclü təzyiqlərinə məruz qalaraq, Moskvaya bəzi müasir tədqiqatçıların qeyd etdiyi kimi fəxri sürgünə göndərilib. Ölümündən sonra isə ona “millətçi” damğası vurulub, 30-cu illərdə isə “narimanovşina” ittihamı ilə onun tərəfdarları represiyalara məruz qalıb. 1956-cı ildə bəraət aldıqdan sonra yenidən mətin və qətiyyətli kommunist kimi təbliğ olunmağa,1988-ci ildən sonra isə ona ikili münasibət formalaşmalaşıb, dövlət müstəqiliyinin bərpasından sonra yenidən xalqın sevimlisinə çevrilib.

N.Nərimanovun xalq arasında özünə layiq qiymətini almasında ümumilli lider H.Əliyevin əvəzsiz xidməti var. H.Əliyevin gərgin mübarizəsi nəticəsində Moskva rəhbərliyi tərəfindən N.Nərimanova qarşı qoyulmuş qadağalar aradan qaldırılmış, onun yubleyi təntənəli şəkildə qeyd edilmiş, Bakının görməli yerində ona möhtəşəm abidə ucaldılmış, onun haqqında "Ulduzlar sönmür" bədii filmi işıq üzü görüb. Bakının ən böyük rayonlarından biri, çoxlu sayda mədəniyyət evləri, kitabxanalar, küçələr, kəndlər və s. onun adını daşıyır.

Bakıda N.Nərimanovun abidəsinin açlışına Moskvada bir sıra rəhbər şəxslər, o cümlədən S. Şaumyanın oğlu uzun müddət müxtəlif manelər yaratmışdılar. Ümumilli lider H. Əliyevin səyi nəticəsində bu maneələr aradan qaldırılmış və 1972-ci ildə pedestalı 12 metr, özü 20 metr olan möhtəşəm abidənin təntənəli açılışı olmuşdur.. (21,16 sentyabr 2013)

Fikrimizcə N.Nərimanovun ictimai-siyasi fəaliyyətinin tədqiqinə onun qısa tərcüme halı ilə də tanış olmaqdan başlamaq lazımdır.

## Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov
## (14 aprel 1870-19 mart 1925)

Nəriman Kərbəlayi Nəcəf oğlu Nərimanov 14 aprel 1870-ci ildə Tifl isşəhərində anadan olmuşdur. 1882-ci ildə Qori seminariyasına daxil olmuş, 1890- cı ildə oranı bitirdikdən sonra Borçalı qəzasının Qızılhacılı kəndində müəllim işləmişdir. 1891-ci ildə Bakıya gəlmiş və 1894-cü ildə Bakıda müsəlmanlar üçün ilk xalq qiraətxanasını təşkil etmişdir. Bu zaman "Nadanlıq", "Şamdan bəy", "Nadir şah", "Bahadır və Sona" kimi əsərlər yazmış və N.V.Qoqolun "Müfəttiş" komediyasını Azərbaycan dilinə tərcümə etmişdir. 1902-ci ildə ekstern qaydası ilə gimnaziyanı qurtarması haqqında kamal attestatı almış və həmin il Odessadakı Novorossiya Universitetinin tibb fakultəsinə daxil olmuşdur. İnqilabi çıxışlardan çəkinən çar höküməti 1905-ci ildə universiteti müvəqqəti bağladıqdan sonra o, Bakıya qayıdır.

1905-ci ildə Rusiya sosial-demokrat fəhlə partiyasının (RSDFP) Hümmət təşkilatına daxil olur. 1906-cı ildə RSDFP-nin Proqramını Azəbaycan dilinə təcümə edir. Sonradan yenidən Odessaya qayıdaraq təhsilini davam etdirmiş və 1908-ci ildə universiteti bitirərək Bakıya qayıdaraq həkim işləmişdir. 1909-cu ildə Bakıda təqiblərdən yaxa qurtarmaq üçün Tifl isə gedir və orda həkimlik fəaliyyətini davam etdirir. Həmin ilin martında inqilabi fəaliyyətə görə həbs edilib Metex qalasına salınır və 6 aydan sonra Həştərxana sürgün edilir. 1913-cü ildə yenidən Bakıya qayıdaraq

1914-cü ilin may ayından Qara şəhər xəstəxanasında həkim işləməyə başlayır.N.Nərimanov 1917-ci ilin martında bolşevik Hümmət təşkilatının Müvəqqəti Komitəsinin heyətinə, 1917-ci ilin iyununda təşkilat komitəsinin sədri vəzifəsinə seçilir. 1917-ci ilin oktyabrında bolşeviklər tərəfi ndən şəhər Dumasına, noyabrda isə Müəssislər məclisinə namizəd göstərilir. 1918-ci ilin aprelin 25- də şəhər təsərrüfatı komissarı kimi Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur. XKS ifl asa uğradıqdan sonra həmin ilin iyununda Həştərxana gedir və Həştərxan icraiyyə komitəsidə maarif şöbəsinin müdiri vəzifəsində çalışır. 1919- cu ildə işləmək üçün Moskvaya çağrılır və RSFSR Xalq Xarici İşlər Komissarlığı Yaxın Şərq şöbəsinin müdiri təyin olunur. Bir müddət həmçinin RSFSR xalq milli işlər komissarının müavini işləyir.

N.Nərimanov 1920-ci ilin aprelin 27-də XI ordu Bakını işğal etdikdən sonra qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan xalq Komissarlar Sovetinin (XKS) sədri seçildi. O, 1920-ci ilin sentyabrında Kommunist İnternasionalı İcraiyyə Komitəsi tərəfi ndən Bakıda çağrılan Şərq xalqlarının I qurultayının hazırlanması və keçirilməsində fəal iştirak etmişdir.

1922-ci ilin martın 12-də Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) sədrlərindən biri idi. N.Nərimanov Genuya (1922) konfransında sovet nümayəndə heyətinin üzvü kimi iştirak edirdi. SSRİ-nin I Sovetlər qurultayında (dekabr 1922) yaradılmış Mərkəzi İcraiyyə Komitəsinin (MİK) ilk sessiyasında ZSFSR-dən SSRİ MİK sədri seçilmişdi. N.Nərimanov 1925-ci il martın 19 – da Moskvada qəfl ətən vəfat etmiş və Moskvada Kremilin divarları yanında dəfn olunmuşdur. Moskvada Şərqşünaslıq İnstitutu uzun müddət Nərimanovun adını daşımışdır. (10,s.32-38)

**N.Nərimanovun ictimai-siyasi fəaliyyətinin tarixşünaslığı**

Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri Nəriman Nəcəf oğlu Nərimanovun ictimai-siyasi fəaliyyəti ilə yaxından tanış olmaq üçün onun haqqında yazılmış kitab və məqalələrlə yaxından tanış olmaq, onların elmi təhlilini vermək lazımdır.

N.Nərimanovun ictimai-siyasi fəaliyyətini öyrənmək üçün fikrimizcə birinci növbədə problemin tarixşünaslığına nəzər salmaq lazımdır. XX-əsrin 20-ci illərində Azərbaycan SSR də rəhbər vəzifələrdə olmuş şəxslər içərisində tarixçilərin fəaliyyətini ən çox tədqiq etdikləri şəxs N.Nərimanovdur. N.Nərimanovun fəaliyyətinə aid yazılmış əsərləri şərti olaraq iki qrupa bölmək olar. I qrupa N.Nərimanovun həyat və fəaliyyətinə müsbət mövqedən yanaşan M.Qazıyev, F.Köçərli, V.Ağasiyev, D.Quliyev, B.Qəhrəmanov, V.Quliyev, H.Həsənov, V.Məmmədov, V.Süleymanova və digər müəllifl ərin kitab və məqalələrini (6, 9, 14,29 iyun 1990,14 aprel 1999;15,№1,1991,s.3-17;16,26 oktyabr, 4 dekabr1996; 17, 7 iyun1989; 22;23;24;26; və s.) aid etmək olar. II qrupa isə bu şəxsin fəaliyyətinə tənqidi yanaşaraq, əsasən onun səhvlərini aşkara çıxarmağa çalışan A.Balayev, M.Qasımov, H.Qəhrəmanov, N.Kazımov, N.Nəsibzadə, Ə.Tahirzadə və digər müəlliflərin məqalə və kitabları (8;12, 7 sentyabr 1991; 13, 26 iyul 1991; 14, 20 iyun 1991, 8 dekabr 1995; 17, 6 iyul 1991; 18, 8 fevral 1996; 19, 6 dekabr 199; 25 və s.) daxildir. İkinci qrupa aid yazılarda N.Nərimanov haqqında "eyni zamanda həm allaha, həm də şeytana ibadət etmək olmaz" kimi nəticələr də çıxarılıb. (18,8 fevral 1996)

Ümumilli lider Heydər Əliyevin N.Nərimanov haqqında demişdir: "Nəriman Nərimanovun əməkçi kütlələri maarifləndirmək əzmi, insanlara xidmət etmək kimi nəcib bir arzusu, hadisələri dərindən başa düşməsi, istedad və bacarığı onu Azərbaycan demokratik və ictimai-siyasi fikir nümayəndələrinin ön cərgəsinə çıxartdı... Bizdən ötrü Mirzə Fətəli Axundov da, Əhməd bəy Ağayev də, Məmmədəmin Rəsulzadə də böyük şəxsiyyətlərdir, Nəriman Nərimanov da. Ancaq son zamanlar Nəriman Nərimanovdan başlayaraq Azərbaycanda bütün siyasi xadimlərin Azərbaycana düşmən olmaları barədə deyilən fikirlərlə heç cür razılaşmaq olmaz...Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir... (7,s.4)

Ümummilli liderin bu fikirləri NNərimanovun ictimai-siyasi fəaliyyətinin obyektiv tədqiqi üçün mühüm əhəmiyyət kəsb edir.

Professor F.İbrahimli 1920-ci il aprel işğalından sonra Azərbaycanda hakimiyyətə gəlmiş siyasi qüvvələri aşağıdakı şəkildə qruplaşdırmağı təklif edir:

1. Azərbaycanda sosializm ideyalarını həyata keçirən və Moskvanın mənafeyini müdafi ə edən qüvvələr. Bura müxtəlif millətlərdən olan kommunistlər daxil idi.

2. Siyasi çevrilişdən istifadə edib respublikada hakimiyyətə gəlmiş və milli intiqam hissi ilə fəaliyyət göstərən erməni kommunistlərindən ibarət qüvvələr.

3. "Beynəlmiləlçi" azərbaycanlı bolşeviklərdən ibarət qüvvələr.

4. Xalqın azadlıq yolunu sosializmdə görən milli hisli, milli baxışlı kommunistlərdən olan qüvvələr (5, s.83)

Fikrimizcə N.Nərimanov azadlıq yolunu sosializmdə görən milli hisli, milli baxışlı kommunistlərdən olan qüvvələrin rəhbəri kimi xarakterizə olunmalıdır.

F.Bayramovun 1972-ci ildə Azərbaycan və rus dillərində çapdan çıxmış "Nəriman Nərimanov (1870-1970). Biblioqrafik göstərici" kitabı onun fəaliyyətinin tədqiqində köməkçi ədəbiyyat kimi əhəmiyyətlidir.

F.Əhmədovanın 2000-ci ildə müdafi ə etdiyi "Nəriman Nərimanovun siyasi fəaliyyəti (1920-1921-ci illər)" adlı namizədlik dissertasiyası elmi nəticələrinə görə əvvəlki illərdə yazılan elmi-tədqiqat işlərindən köklü surətdə fərqlənir. Müəllif N.Nərimanovun siyasi fəaliyyətini tədqiq etmiş alimlərin fikirlərini ümumiləşdirərək aşağıdakı nəticəyə gəlib:"Siyasi portretini yaratmağa çalışdığımız N.Nərimanov şəxsiyyətinin "mənfilikləri" bir, "müsbət tərəfi " digər gözünə qoyulan sosial tərəziyə yerləşdirilməməlidir. Qətiyyən unutmaq olmaz ki, Nəriman Nərimanov öz zəmanəsinin gerçəkliyidir. Onu dövründən, mühitindən qoparmaq, tarixi, elmi və siyasi yanlışlıqdır."

F.Əhmədova N.Nərimanovun siyasi fəaliyyətini mənfi qiymətləndirən tarixçilərə tənqidi yanaşaraq qeyd edir ki, onlar N.Nərimanovla bağlı mülahizələrini qatı siyasi emosiya müstəvisindən elmi-tədqiqat zəmininə keçirərək öz fikirlərini əsaslandırmağa səy göstərirlər. Müəllifin N.Nərimanovun 1920-1921-ci illər siyasi fəaliyyətini tədqiq edərək gəldiyi nəticələri aşağıdakı kimi

ümumiləşdirmək olar: N.Nərimanovun inqilabçılığının mənəvi mənbəyi haqsızlığa, əsarətə dözə bilməməsi idi; Sosializm cəmiyyəti quruculuğunu özünün dünyagörüşü və baxışları modelində düzgün sayan N.Nərimanov Azərbaycanda sovet hakimiyyətinin qurulmasına nəzəri tövsiyyə və məsləhətlərlə yardım etsə də, aprel çevrilişinin baş vermə mexanizmində iştirak etməmişdir; N.Nərimanovun Azərbaycana dönüşü sovet idarəçiliyində milli-mənəvi dəyərlərinqismən da nəzərə alınmasına səbəb oldu. Lakin onun idarəetmə səlahiyyəti xalq arasında malik olduğu nüfuzla mütənasib deyildi; Ümumdünya sosial inqilabının qələbəsindən sonra millətlərin varlığını istisnasız qəbul edirdi. Millət məfhumunun təbii yolla, tədricən aradan qaldırılmasının tərəfdarı idi; "Millətlərin olmayacağı bəşər cəmiyyəti"ni ideal hesab etsə də, Sovet Azərbaycanının Şərq ölkələrinə nümunəsi baxımından müstəqilliyi uğrunda mübarizə aparmışdır; Azərbaycanın mədəni-milli spesifi kasına, adət-ənənəsinə uyğun siyasət yeritməyi, yerli müsəlman psixologiyasını nəzərə almağı, dinə humanist, dözümlü, ehtiyatlı münasibətlə yanaşmağı irəli sürürdü; Azərbaycan Respublikasının gələcəyini Rusiya ilə federativ birləşmə çərçivəsində götürürdü; Sovet Rusiyasının xarici siyasətdə Şərqə önəm verməsi uğrunda prinsipial mübarizə aparmışdır; Heç bir zəmin yaratmadan sərbəst ticarəti qadağan etməyə qarşı olmuşdu ki, kütləvi işsizlik yaranmasın. Müsadirəni yalnız iri burjuaziyaya aid edib, xırda sənaye vəticarətə toxunmamağa, orta sinfə qarşı mülayim davranmağa çağırırdı. (11, s.66-67)

H.Ə.Həsənovun "Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti" kitabın giriş hissəsində mövzunun 1920-2005-ci illər tarixşünaslığı geniş təhlil olunub. Müəllif qeyd edir ki, N.Nərimanovu millətçilikdə ittiham edənlər də, onu müdafiə edənlər də marksist-leninçi mövqedən çıxış edirdilər. 80-ci illərin sonu 90-cı illərin əvvəllərində yaranmış şəraitdə sovet sisteminin zəifləməsi ilə N.Nərimanovla bağlı aparılan araşdırmalar genişləndi və tarixin keçid dövrlərinə xas olan fikir ayrılığı ortalığa çıxdı. Yazı müəlliflərinin bir qismi, əsasən də N.Nərimanovun sovet dövründə nəşri qadağan olunmuş irsi ilə yaxşı tanış olanlar onun bu zamana qədər nəşr olunmayan əsərlərini üzə çıxarır, milli təmayülçü baxışlarına yeni dəyərlərə əsaslanan obyektiv qiymətlər verirdilər Başqa bir qismi isə tarixi hadisə və prosesləri mövcud olduqları mühitdən ayıraraq, hissiyyatın tarixi gerçəkliyi üstələdiyi qəzet məqalələrində tarixi həqiqətlərin inkarını ön plana çəkib subyektiv mövqe tuturdular. Onlar N.Nərimanovu əsassız olaraq kommunist ideologiyasına münasibətdə və Rusiya ilə əlaqələrdə ən azı sadəlövhlükdə, milli maraqlara qarşı laqeydlikdə günahlandırırdılar. (3, s.8)

Ş.Qurbanovun kitabında Türkiyədə nəşr olunan əsərlərə xüsusi diqqət yetirib. Bu səpkidə Rza Nurun xatirələri və bu xatirələrdə N.Nərimanova verilən qiymət çox dəyərlidir. Doğan

Avçıoglunun əsərində Atatürk hökumətinə və Kazım Qarabəkir Paşaya N.Nərimanovun başçılıq etdiyi Azərbaycan sovet hökumətinin göndərdiyi maliyyə yardımı haqqında danışılır. Türkiyə nəşrləri araşdırılarkən M.Sarayın, İ.Bozdağın, İ.Yükselin, V.İmanovun əsərlərində Azərbaycanda sovet hakimiyyəti qurularkən yaranmış şərait geniş təhlil olunur. Halit Kakıncın son zamanlar Türkiyədə nəşr olunan "Sultanqaliyev və Milli Kommunizm", eləcə də "Destani Kuramçi Sultanqaliyev" adlı əsərlərində sovet dövründə müxtəlif vəzifələrdə çalışan kommunistlərin fəaliyyətinə yeni baxışla rastlaşırıq. Əsərlərdə N.Nərimanovun sovet Rusiyasının başqa siyasətçiləri ilə birlikdə apardığı milli təmayülçülük fəaliyyəti haqqında geniş danışılır. Müəllif qeyd edir ki, Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində (ARSPİHDA) saxlanılan "N.Nərimanov fondu" adlandırılan xüsusi fondda 200 iş qorunub saxlanılır ki, burada olan N.Nərimanovun məktubları, teleqramları, məqalələri və qeydləri, eyni zamanda ona göndərilən məktub və teleqramlar (11,s.69) problemin öyrənilməsində mühüm rol oynayır.

M.Qasımovun "Xarici dövlətlər və Azərbaycan (Aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatik-siyasi münasibətlər)" kitabının nəticə hissəsində müəllif N.Nərimanovun 1920-1922-ci illərdəki fəaliyyətinə münasibət də bildirib. Müəllif qeyd edir ki, "N. Nərimanov başda olmaqla bolşevik liderləri Azərbaycanda müstəqillik şüurunu məhv edərək xoşbəxtliyi Rusiyanın müstəmləkəçilik əsarəti altında axtarmışlar. Onlar bütün hallarda Rusiya siyasətinin aləti olmuşlar... İşğaldan sonra Rusiya hökuməti Güney Qafqaz respublikalarının təsərrüfat və maliyyə həyatını birləşdirdi. Zorla birləşdirmə siyasətində N.Nərimanov başda olmaqla Azərbaycan bolşeviklərinin tövsiyyələri mühüm istiqamətverici rol oynadı. Bu tövsiyyələr N.Nərimanovun və B.Şahtaxtinskinin V.İ.Leninə və G.Çiçerinə göndərdikləri məktublarda toplanmışdır." (8)

Nərimanovdan fərqli olaraq Azərbaycana 20-ci illərdə rəhbərlik etmiş digər rəhbərlərin bəziləri haqqında demək olar ki, heç bir məqalə və kitab yazılmasa da, bəziləri haqqında az da olsa kitab və məqalələr nəşr olunub. R.M.Bayramovanın 2007-ci ildə nəşr olunmuş "Azərbaycan rəhbərliyində ixtilafl ar və daxili siyasi çəkişmələr (1920-1925-ci illər)" kitabında aprel çevrilişindən sonra bolşevik üsul-idarəsinin yaradılması, rəhbər dairələrdə yaranmış ixtilaflar, daxili siyasi çəkişmələr, onların səbəbləri və s. məsələlər tədqiq edilib. Müəllif qeyd edir ki, 1920-1925-ci illərdə Respublika rəhbərliyində ixtilaflar nərimanovçuluq, xanbudaqovçuluq ideyası altında səciyyələndirilib. Bu ixtilafl arın əsas səbəbi milli mənafe və yerli şəraitin nəzərə alınmaması idi. Müəllif haqlı olaraq göstərir ki, Kommunist Partiyasının vahid hegemon bir partiya olduğu dövrdə partiyadaxili ixtilafl arı rəsmi səviyyədə obyektiv tənqid etmək mümkün deyildi. 27 aprel işğalından

dərhal sonra yerli əhalinin müsadirə bəhanəsi ilə kütləvi şəkildə qərət edilməsi rəhbərlikdə fikir ayrılığına gətirib çıxarmışdı.

Müəllif kitabın 17-ci səhifəsində AK(b)P-nin 1920-ci ilin oktyabrında keçirilən II qurultayında N.Nərimanovun çıxışdan sitat gətirməklə onun bu məsələyə münasibətinə aydınlıq gətirir. N.Nərimanov bu müsadirələrin əleyhinə öz kəskin etirazını bildirərək deyirdi: “Müsadirə edərkən və müsəlman evinə girərkən onun hansı şəraitdə yaşadığını bilmək lazımdır. Müsəlman qadınının qulağından sırğanı çıxarmaq və bədənində brilyant axtarmaq lazım deyil. Brilyant bizə lazımdır, ancaq onu başqa yerdə axtarmaq lazımdır”

Kitabın 72-73 səhifələrində N. Nərimanovun milli təmayüllü kommunist ideologiyasının 9 maddədən ibarət platforması arxiv sənədlərinə istinadən verilmişdir:

1.Azərbaycan bütün qəzalarla müstəqil olmalı və SSRİ-yə müstəqil dövlət kimi daxil olmalıdır.

2.Orta sinfə, yəni orta burjua sinfi nə maksimum güzəştə getmək lazımdır.

3.Dövlət idarələri tam milliləşdirilməlidir, yəni məsul vəzifələrdə çalışan dövlət məmurlarının əksəriyyəti milliyətcə azərbaycanlı olmalıdır.

4.Azərbaycan dili dövlət dili elan olunmalı və tam hüquqla fəaliyyət göstərməlidir.

5.Hərbi qulluq əhalinin tam imkanları əsasında keçirilməlidir.

6.Bütün partiya və dövlət siyasəti Azərbaycanın milli adət-ənənələri ilə uzlaşmalıdır.

7.Din məsələlərində maksimum ehtiyatlı rəftar edilməlidir.

8.Azərbaycanın iqtisadi imkanlarına və milli sərvətlərinə tam və müstəqil şəkildə sərancam verilməli,lazım bilindikdə başqa “qardaş respublikalara” yardım göstərilməlidir.

9.Şərq xalqlarının milli-azadlıq hərəkatına kömək edilməlidir.(11,70-71)

2015-ci ildə Moskvada məşhur rusiyalı tarixçi-qafqazşünas, professor Rudolf İvanovun “Ölüm-dirim savaşı. Açılmış arxivlər Nəriman Nərimanovun Azərbaycanda bolşevizm təhriflərinə qarşı mübarizəsinin sirlərini üzə çıxarır” adlı kitabı N.Nərimanovun sovet rejiminə qarşı mübarizəsinin tədqiqində mühüm əhəmiyyət kəsb edir.Kitab 10 bölmədən, 475 tarixi materialdan ibarətdir ki, bu sənədlərin bir çoxu üzərindən məxfilik qrifi yalnız 2014-cü ildə götürülmüşdür.

Kitabın əlavə hissəsində N.Nərimanovun həyat və fəaliyyəti ilə bağlı 147 əlamətdar tarix göstərilib.(2)

Nəriman Nərimanovun ictimai-siyasi fəaliyyətinin tədqiqində 1988-ci və 1989-cu illərdə ildə rus dilində nəşr olunmuş 2-cildlik seçilmiş əsərləri (22,23) və 2004-cü ildə nəşr olunmuş Nərimanov Nəriman. Seçilmiş əsərləri. Kitablarının mühüm əhəmiyyəti var. (7)

N.Nərimanovun ziddiyyətli həyat və fəaliyyətinin tədqiqində 1989-cu ildə rus dilində nəşr olunmuş, ona müxtəlif siyasi xadimlərin göndərdiyi 38 məktub və teleqramın, onun özünün müəllifi olduğu 336 məqalə, nitq, məktubun və digər 90 sənədin toplandığı "Nəriman Nərimanov. Seçilmiş əsərləri" ikicildliyi mühüm rol oynayır. N.Nərimanovun "Bizim üçün bir yol, böyük rəhbərimiz Leninin göstərdiyi yol vardır" sözlərilə başlayan kitabın ikinci cildi 1918-1921-ci illəri əhatə edir.(23)

Bu kitabdakı bütün sənədlər onun sovet hakimiyyətinə, kommunist ideologiyasına ürəkdən inanan bir şəxs olduğunu göstərir. Lakin N.Nərimanovun uzun illər məxfi saxlanılan, yalnız 66 il keçdikdən sonra 1990-cı ildə rus dilində, 1992-ci ildə isə Azərbaycan dilində nəşr olunan "Ucqarlarda inqilabımızın tarixinə dair" məruzəsi ikicildlikdəki fikirlərlə əkslik təşkil edir. Kitabda 1923-cü ilin iyununda RK(b)P MK-ya İ.V.Stalinə, surətləri L.D.Trotski və K.B.Radekə göndərilmiş bu məruzə ilə yanaşı, həmin sənədə 1923-cü ilin 23 dekabrında və 1924-cü ilin mayın 27-də müəllif tərəfi ndən edilmiş iki əlavə də daxil edilib. Bundan başqa kitabda N.Nərimanovun V.İ.Leninə məktubu və oğluna tamamlanmamış məktubu da çap olunub. Bu kitabdakı fikirlərdən aydın olur ki, N.Nərimanov 27 aprel 1920-ci il tarixindən mərhələ-mərhələ bolşeviklərin söz və əməllərinin uyğun gəlməməsini, kommunist ideologiyasına inanmasının səhv olduğunu başa düşüb və bu səhvlərinin də qurbanı olub.

Azərbaycanın görkəmli ictimdi-siyasi xadimi olan N.Nərimanovun fəaliyyətinin tədqiqi müasir dövrdə aktual olaraq qalır. Tarixçilər bu sahədə tədqiqatlarının daha da genişləndirilməsinə ciddi ehtiyac var.

**N.Nərimanov tərəfindən Azərbaycanın dövlət müstəqiliyinin müdafiəsi**

Sovet Rusiyasının XI ordusu dünya ölkələri tərəfindən tanınmış Azərbaycan Xalq Cümhuriyyətinin sərhədlərini beynəlxalq qanunlara məhəl qoymadan pozaraq işğal etdikdən sonra N.Nərimanov Müvəqqəti İnqilab Şurasının sədri seçilir. Lakin onun bu vəzifəni tutmasına baxmayaraq əsas səlahiyyətlərin XI ordu komissarlarında olması vəziyyəti daha da ağırlaşdırırdı. N.Nərimanov kommunist ideologiyasına inanaraq aşağıdakı vəzifələri həyata keçirməyə çalışırdı: "Azərbaycandan Şərq üçün nümunəvi Sovet Respublikası yaratmaq və bununla da Şərqin məzlum xalqlarını tez bir zamanda öz tərəfimizə cəlb etmək, azadlıq hərəkatını alovlandırmaq və bu yolla Avropa kapitalizmini öz iqtisadi bazasından məhrum etmək, Avropa fəhlələrinin həyatındakı böhranı dərinləşdirmək, tezləşdirmək və beləliklə də Avropada arzu etdiyimiz inqilabı sürətləndirmək. Öz qarşıma qoyub həll etmək istədiyim başlıca vəzifə bundan ibarətdir.(7,s.438) 18-ci ildən başlayaraq mənim məsləkdaşlarımla birgə səyim, bütün inqilabi Şərqi Sovet Rusiyası ətrafında və yanında toplamağa və bu günədək Yer kürəsinin o biri yarısında milyonlarla insanların başlarına gətirilən müsibətə bir zərbə ilə son qoymağa yönəldilmişdi. Yer kürəsinin yarıdan çoxunda əhalinin köləliyi, Yer kürəsinin kiçik hissəsində yaşayan əhalinin rifahı üçün şüurlu surətdə müdafiə edilir və bizim beşillik çağırışımıza baxmayaraq burda çoxmilyonlu fəhlə sinfi daha azsaylı istismarçıların zülmü altında inləyirdi və inləməkdə davam edir…Qərbin Şərqdən iqtisadi asılılığı məni belə bir şüar irəli sürməyə məcbur edirdi: Şərqdən keçək Qərbə. Həm ucqar respublikalarda bizim taktika məsələlərində, həmçinin Azərbaycanda və Əfqanıstanda, İranda və Türkiyədə bizim siyasətə münasibətdə, mən Şərq məsələsi haqqında danışdıqda, məhz yuxrıda adı çəkilən məqsədi nəzərdə tuturdum. (7, s.449)

XI ordunun süveren dövləti ərazisinə "Müstəqil sovet Azərbaycanı!" kimi saxta şüarla daxil olmasına əvvəllərt yerli kommunistlər, o cümlədən N.Nərimanov da inanmışdılar. Sovet tarixçiləri ö bu şüarın saxtalığını ört-basdır etmək üçün dəridən qabıqdan çıxırdılar. (27) "Müstəqil sovet Azərbaycanı" şüarının saxta olmasını əvvəllər gizli saxlanan, yalnız son illər işıq üzü görmüş bir sıra sovet mənbəşünaslığının nümunələri də sübut edir. Məsələn, İ.Stalinin Leninə 1922-ci ilin sentyabrında yazdığı məktubda müstəqil respublika oyununa son qoymağın vaxtının çatdığını bildirməsi buna misal ola bilər.(28, c.6 1990,s.186) Bu şüarın saxtalığının sovet hakimiyyətinin yeritdiyi siyasət nəticəsində üzə çıxması bir çoxları kimi N.Nərimanovda da kommunist ideologiyasına olan inamı sarsıtdı. "Müstəqil sovet Azərbaycanı" şüarının yalan olduğunu başa

düşən, sovet rejiminin riyakarlığını əyani şəkildə görən N.Nərimanov bu reyimə qarşı mübarizə apararaq, reyim daxilində sovet Azərbaycanının müstəqilliyini müdafiə etmişdir.

N.Nərimanovun bu mübarizəsi tezis çəkilində onun əsərlərinə istinadən aşağıdakı faktlarla göstərmək olar:

- Əziz Vladimir İliç, məgər "Müstəqil Azərbaycan" Sizin dilinizdən çıxmamışdım"? …
  İndi vəziyyət belə bir şəkil alır: həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycanın ərazilərini almışdır. İndiyə qədər ikili siyasət aparan Gürcüstan müstəqillik əldə etmişdir. Üç respublikadan birinci olaraq Sovet Rusiyasının qoynuna atılmış Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir. (7,s.466)
- Vladimir İliç! Çoxmillətli əhalinin hüquq və hissləri ilə belə zarafat etmək olmaz. Siz inanmayın ki, Azərbaycan çoxsaylı şüurlu rus fəhlələri yaşayan Bakı deməkdir. Bu kobud səhvdir. İndi Bakıda şüurlu müsəlman fəhlələrinin sayı iki dəfə çoxdur. Bəs, bütün Azərbaycanın kəndliləri? Mən qəti surətdə bildirirəm: əgər Siz də bizim dəlillərə diqqət yetirməsəniz, məcbur olacağıq ki, bizim geri çağırılmağımız barədə. Mərkəz qarşısında məsələ qoyaq. …Yeganə ümidimiz - inqilabımızı Şərqdə siyasətlə müdafiə etmək ümidi də alt-üst oldu. Və bütün bunların müqəssiri kimdir? 1-ci Morkəzin xəbərsizliyi və 2-ci Mərkəzdə oturmuş erməni daşnak- kommunistlərinin iyrənc işi. (7,s.466-467)
- Mənim zəirə qədər də şübhəm yoxdur ki, Serqo vo Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır. Nə kimi nəticələr olacağını demək çətindir, lakin əgər olsa, bunun bütün məsuliyyəti Serqo və Stalinin üzərinə düşəcəkdir.(7,s.465)
- Həqiqətən, görəsən hal-hazırda Azərbaycanda Azərbaycanı təmsil edən partiya vardırmı. Mən təsdiq edirəm: belə bir partiya yoxdur və mirzoyanlar öz iyrənc siyasətlərindən, Azərbaycanı simasızlaşdırmaq siyasətindən əl çəkməyənə qədər də olmayacaqdır. (7,s.445)
- Sonra Moskvaya yola düşməzdən əvvəl yol. Orconikidzc nəyə görə isə Mərkəzi Komitədə belə bir məsələ qoydu:"Azərbaycan Respublikası müstəqilini yaşamalı, yaxud tərkib kimi Sovet Rusiyasına daxil olmalıdır?" MK üzvləri - Qarayev, M.D.Hüseynov belə bir fikir irəli sürürdülər ki, bizə heç bir müstəqillik lazım deyil, biz Azərbaycanı Sovet Rusiyasına …birləşdirməliyik... Sonra Orconikidzc mənə müraciət etdi və soruşdu: "Bu məsələ barədə siz nə fikirləşirsiniz, Sizin rəyiniz mənim üçün vacibdir"". Mən qəti şəkildə bildirdim:

“Azərbaycan Respublikası Gürcüstan və Ermənistan sovetləşdirilənədək müstəqil olmalıdır, sonra isə baxarıq...” (7,s.420)

- Əlbəttə, əgər bizim xarici aləmlə silahlı toqquşmamız olmasa hələ bir müddət hakimiyyəti süngü gücünə saxlamaq olar, lakin əgər bu toqquşma baş verərsə, onda neft sənayesi təhlükə altında qalacaqdır. Bir dəqiqə belə vaxt itirmədən son zamanlarda Azərbaycanda yaranmış nöqsanlara diqqət yetirmək zəruridir. İki ay bundan əvvəl Azərbaycanda üsyan baş vermişdi. Asanlıqla yatırdılar, lakin neçə gün qırmızı əsgərlərdən bataqlıqda gizlənməyə məcbur olan qadın və uşaqları oradan zorla çıxardıqda əhaliyə bu yatırma necə təsir göstərmişdi. Orcaeonikidzenin nəzəriyyəsinə görə, əlbəltə, kiçik Azərbaycanın əhalisini müntəzəm olaraq məhv etmək olar, lakin onda respublika kimdən ibarət olacaqdır? (7,s.452)
- Əgər indi Neftkomun və Baksovetin qulluqçularının tərkibinə nəzər salınarsa, onda qərəzsiz müşahidəçi dəhşətə gəlir. Yerli müsəlman mühəndislər və ümumiyyətlə, ziyalılar alver edir, bu müəssisələr isə rus, erməni və yəhudilərlə doldurulmuşdur. Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə, müstəmləkəçilikdə ittiham və i.a. eşitməyə məcbur olursan.(7,s.440)
- 19-cu əsrin əvvəlində, Həştərxanda müalicə olduğum zaman mən türk dilində “Biz Qafqaza hansı şüarla gedirik” başlığı altında kitabça buraxdırmışdım... əsas məsələlərdən başlıca olaraq aşağıdakılar irəli sürülmüşdü:

  1) Qərbdə bizim arzu etdiyimiz inqilabın gecikdiyini və uzun sürən xarakter daşıyacağını nəzərə alaraq, biz gərək Şərqlə əlaqə yaradaq ki, Avropanı bizimlə danışmağa məcbur etmək məqsədilə cəbhəni yarıb bununla da mühasirədən çıxaq.

  2) Azərbaycanı sovetləşdirərkən Rusiyada etdiyimiz səhvlərə yol verməməli, yerli şəraitlə hesablaşmalı, müstəqil nümunəvi Sovet Respublikası yaratmalıyıq ki, Şərq zəhmətkeşləri, birincisi; bizim işğalçı imperialist məqsədlərimizin olmadığını bilsinlər və ikincisi; onlar görsünlər və hiss etsinlər ki, öz həyatlarını xanlarsız, bəylərsiz və başqaları olmadan qura bilərlər.

  3) İri sənaye müəssisələrini ələ keçirərək, kiçiklərə toxunmamaq və ticarətə icazə vermək.

  O zaman mən axırıncı bəndin ümumrusiya miqyasında da həyata keçirilməsini hələ cəsarətsiz təklif edirdim. (7,s.418-419)
- Bakıya gedən zaman hələ yolda ikən öyrəndim ki, Bakı bizim qoşunlarımız tərəfindən alınmışdır... Biləcəridə məni bəzi yoldaşlar qarşıladılar, görünür, mənim gəlişimə çox sevinirdilər. “Bəlkə Sizə qədər olan biabırçılıqlara son qoyulacaqdır”. Onlar belə dedilər.

Mən onları sakitləşdirdim və gələcək çətin işdə mənə kömək etməyi xahiş etdim. İnqilab Komitəsinin Rəyasət Heyəti o zaman məndən (sədrdən), Mirzə Davud Hüseynovdan (müavindən) yə bir nəfər üzvdən Qarayevdən ibarət idi. "Azərbaycanı başdan-başa qarət edirlər, sağa və sola güllələyirlər". Bəzi yoldaşlar məni (onların arasında nə Qarayev, nə Hüseynov var idi) bu sözlərlə qarşılamışdılar". İşlərlə tanış olduqdan sonra mən İnqilab Komitəsinin Rəyasət Heyətinin iclasını təyin etdim və o zaman faktiki olaraq hər şeyi idarə edən yol. Pankratovu dəvət etdim. Mən belə bir məsələ qoydum ki, İnqilab Komitəsinin sanksiyası olmadan heç kim güllələnməsin. Mirzə Davud Hüseynov vo Qarayev bunun əleyhinə çıxdılar. Beləliklə, hər şey əvvəlki kimi davam edirdi... (7,s.419-420)

- Yol. Lominadzeni irəli sürdü: Azərbaycan kəndlərində inqilab baş verməmişdir, bu inqilabı etmək zəruridir, yəni bütün bəy malikanələrini yandırmaq və bununla da kəndlilərə inqilabın baş verdiyini hiss etmək imkanı vermək... Mən təəccüblə elə sualla da cavab verdim: "Nə üçün yol. Lominadze məhz bu yolla Azərbaycan kəndlərində inqilab etmək istəyir". O mənə eynilə belə cavab verdi: "Çünki Rusiyada belə edilmişdir".

  Mən buna etiraz etdim ki, Rusiyada bu, mülkədarları yuvalarından qovmaq məqsədilə edilmişdi, lakin Azərbaycanda bəy və mülkədarların yuvaları çoxdan boşdur, çünki bu yuvaların sahibləri çevrilişin elə birinci günü qaçmışdılar. Kasıb kəndliyə yaxşı olmazmı ki, deyək o, bəyin malikanəsinə köçsün, çünki indi o bu malikanənin sahibidir. Mənim fikrimcə, bu daha yaxşı təsəvvür oyadar və malikanələr salamat qalar. Mənim etirazlarımdan sonra, bütün səylərə baxmayaraq müzakirə aparmaq mümkün olmadı: Qarayevi və Hüseynovu danışmağa qoymurdular. Hüseynov büzüşdü və mənə nə isə kəkələməyə başladı (7,s.425)

- Lakin Azərbaycan məhz gözəl iş görmüşdür. Sovet Azərbaycanı özü könüllü olaraq neftin Sovet Rusiyası zəhmətkeşlərinə mənsub olduğunu elan etmişdi, lakin Sovet respublikasında başda "kral" Serebrovski olmaqla "monarxiya" yaratmaq nəyə lazım idi, o indiyə qədər elə bilir ki, azərbaycanlıları aypara və ulduzla aldadır. (7,s.439)
- Mən israr edirəm ki, mənimlə məhrəmanə söhbət zamanı azərbaycanlılardan kimsənin Azərbaycanın ən gəlirli mənbədən məhrum olması haqqında öz narazılığını bildirməsi halı olmamışdır, lakin Serebrovskinin Sovet Azərbaycanını tanımaq istəməməsi barəsində çoxlu söz-söhbət olmuş və indi də vardır.Bax, budur milli təmayülü yaradan. (7,s.440)
- Xəstəxana üçün cərrah həkim lazımdır. İki namizəd vardır: yəhudi Belenki, bitərəf, birillik stajı olan, Azərbaycanda tamamilə yeni adam və türk Talışinski, beşillik stajı olan, yerli əhalinin yaxşı tanıdığı adam. Hər ikisi 8 səs qazanır. Nəyə görəsə Bakı İcrakomu Belenkini

təyin etmək istəyir. Ona görə ki, Belenkinin qardaşı - BEKA-nın üzvüdür, BEKA isə lcrakomun sədri yol.Krılova Belenkini təyin etməyi əmr edir. Mənim müdaxilə etməyim, nəhayət, Belenkiyə öz qardaşını yerləşdirməyə imkan vermir. (7,s.440-441)

- Əgər indi Neftkomun və Baksovetin qulluqçularının tərkibinə nəzər salınarsa, onda qərəzsiz müşahidəçi dəhşətə gəlir. Yerli müsəlman mühəndislər və ümumiyyətlə, ziyalılar alver edir, bu müəssisələr isə rus, erməni və yəhudilərlə doldurulmuşdur.
- Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə, müstəmləkəçilikdə ittiham və i.a. eşitməyə məcbur olursan.
- Mən neft məhsullarından Azərbaycanın xeyrinə faizli ayırmalara dair düz bir il yol.Screbrovski ilə mübarizə aparmışam…Bu qərar AK(b)P Siyasi Bürosunun iclasında qəbul edilmişdi…Serebrovski indiyə qədər bunu lazımınca yerinə yetirmir. Nə üçün respublika EMKA-sı bu qərarın icrasına nəzarət etmir. Ona görə ki, Kirov, Mirzoyan yoldaşlar və onların kampaniyası işə saymaz münasibət bəsləyirlər. Buna diqqət yetirmək üçün, əgər belə demək mümkünsə, gərək həqiqətən beynəlmiləl qəlbə malik olasan. Azərbaycanda kəndlilərin cəhalət bataqlığında boğulması onların əsla vecinə deyil. Bəs, MİK-in sədri Ağamalıoğlu, Xalq Komissarları Sovetinin sədri Musabəyov. Bəli, bu bədbəxtlər bu vəzifələrə irəli ona görə çəkilmişlər ki, sussunlar... (7,s.440-441)
- Mənim Azərbaycanda daşnak işi haqqında mülahizələrimin o biri yarısı, fikrimcə, elə bu il məlum olacaqdır. Dağlıq Qarabağ Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilmişdir. Mənim vaxtımda bu mümkün olmamışdı, ona görə yox ki, mən bu muxtariyyətin əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni kəndlilərinin özləri bunu istəmirdilər. Mirzoyan bu müddət ərzində erməni daşnak müəllimlərin köməyi ilə zəmin hazırladı və məsələni Zaqafqaziya Diyar Komitəsində keçirdi. Bu məqamdan kəndlilərin və türklərin kəndlilərə münasibəti olduqca kəskinləşmişdi. (Türk kəndlilərinin və türk partiya va sovet işçilərinin erınəni kəndlilərinə münasibəti nəzərdə tutulur). Daha sonra Gəncənin dağlıq hissəsi haqqında məsələ gəlir və i.a. Azərbaycanda daşnak siyasəti tam gücü ilə həyata keçirilir. Mənim zərrə qədər də şübhəm yoxdur ki, Serqo vo Stalinin simasında AKP MK biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır. Nə kimi nəticələr olacağını demək çətindir, lakin əgər olsa, bunun bütün məsuliyyəti Serqo və Stalinin üzərinə düşəcəkdir. (7,s.464-465)
- Mikoyandan sonra Sərkis nəyin bahasına olursa-olsun BEKA-nın katibi olmaq istəyir, o istədiyinə nail olub. Mikoyanm xəttini davam etdirir və hər şeydən əvvəl müsadirə haqqında

məsələ qaldırır. Mən konkret təklif irəli sürdüm. Qabaqcadan burjuaziyanın siyahısı və dəqiq ünvanlarını tərtib etmək və bu məlumatlara əsasən müsadirə keçirmək. Günlərin bir günü evlərin nömrələrinə görə müsadirə başlayır. Qeyd etmək lazımdır ki, çevrilişdən sonra burjuaziyanın bir çox evlərində fəhlələr, sovet qulluqçuları və kommunistlər yerləşirdilər. Beləliklə, bir çox kommunistlər, sovet qulluqçuları, kasıblar və hətta fəhlələr də qarət edilmişdi. Öz evlərində deyil, kiçik mənzillərdə yerləşən burjuaziyanın əksəriyyəti, isə müsadirədən yaxa qurtamışdı. Bu, plansız əsil qarət idi. Nəticədə fəhlələr nə əldə etdilər? Fəhlələrin bir qismi nimdaş pal-paltar, bir qismi isə heç bir şey almadı. Bu düşünülməmiş müsadirənin təşkilatçılarını iclaslarda fəhlələrin özləri dəfələrlə məzəmmət etmişdilər. Nəhayət, təşkilatçıların özləri böyük səhvə yol verdikləri haqqında danışmağa başladılar. Bu səhvlər bütün Azərbaycan boyu təkrar edilirdi. Bütün bunlara göz yummaq olmazdı, təftiş təyin edildi. Nəticədə şeylərin düzgün bölüşdürülməməsi, təşkilatçıların hər şeydən qabaq özlərini yaddan çıxarmaması, əsas ilhamverici yol. Sərkisin himayədarlığı altında şeylərin itməsi və i.a. haqqında bir cild iş tərtib edilmiş oldu. (7,430-431)

N.Nərimanov sovet rejimi daxilində Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsi kommunist rəhbərlərin bu böyük şəxsiyətə qarşı düşmənçiliyi ilə nəticələnmiş və onu millətçilikdə ittiham etməyə başlamışlar.

## N.Nərimanov tərəfindən milli və dini dəyərlərin müdafiəsi

***"Gör bir, sən özün türk qızı olasan öz dilini bəyəmnəyəsən!... Türk qızları ancaq əfsərə getməkdən və firəng dilini bilməkdən ötəri və öz dilini, millətini düşmən tutmaqdan ötəri mədəniyyətin dalınca gedirlərsə, heç getməsələr yaxşıdır". (7,s.178)***

Nəriman Nərimanov sovet rejimi daxilində Azərbaycanın müstəqilliyinin çətinliklə olsa müdafiə etməklə yanaşı, milli və dini dəyərlərin qorunub saxlanması, mülli kadrların represuyalardan müdafiəsi istiqamətində də mühüm işlər görmüşdür. O, Gəncə üsyanı ilə əlaqədar V.İ.Leninə 1 avqust 1920- ci il tarixli məktub yazaraq Azərbaycanın iki böyük şəxsiyyətini ölümün cəngindən xilas etmişdir. Məktubda deyilir: "Gəncə üsyanı zamanı keçmiş Azərbaycan ordusunun bütün zabitləri həbs olunmuşdur. Onların arasında məşhur generallar Mehmandarov və Şıxlinski də var... Onları Sizin sərəncamınıza göndəririk.."(23,s.31)

N.Nərimanovun 1922-ci ildə Azərbaycan Sovet Sosialist Respublikası Xalq Komissarları Soveti sədrinin şəxsi katibinin rəsmi blankında Azərbaycan dilində əski əlifbayla yazdığı iki bəndlik şeiri də onun öz xalqına necə bağlı olduğu bir daha sübut edir:

Hilal artıq öldü deyə,

Sevinmişdi düşmən yenə

Hilal birkən iki oldu,

Salam bizdən ikinciyə,

Azərbaycan, Azərbaycan

Alqışlarıq səni candan.

Atamız bir, babamız bir,

Azərbaycan öz qardaşdır.

Zatən biriz, fəqət yarın,

Bütün, bütün birləşəriz

Azərbaycan, Azərbaycan

Bildin, xəyal deyil Turan! (4, s.271;20, 25 dekabr 2014)

N.Nərimanovun 1896-cı ildə I hissəsi, 1899-cu ildə II hissəsi nəşr olunmuş "Bahadır və Sona" əsərində milli dillə bağlı yazdığı fikirlər müasir dövrdə də öz aktuallığı ilə diqqəti cəlb edir. Müsir dövrdə milli təhsilə, milli dilə ögey münasibət bəsləyən, öz ana dilini bəyənməyən bəzi üzdəniraq şəxslərə N.Nərimanov 123 il əvvəl Bahadırın dili ilə kəskin münasibət bildirir: "Axırda mənim: - "Türkcə yazmaq, oxumaq bilirsinizmi?" sualıma qız cavab verdi ki, "Türk dili nədir ki, ona gözəl vaxtımı çürüdəm və nəyə lazımdır..." Bu sözlər mənim qanımı dəxi də xarab edib davam gətirə bilmədim, xudahafiz, deyib çıxdım. Sultan bu sözlərdən sonra Bahadıra baxıb onun bu barədə sözünü gözlədi.
- Bəs belə, - Bahadır fikrə gedib dedi:-Gör bir, sən özün türk qızı olasan öz dilini bəyəmnəyəsən! Özün türk övrəti olasan, 20 il bundan müqəddəm sadə türk külfətindən çıxasan, indi... Türk qızları ancaq əfsərə getməkdən və fırəng dilini bilməkdən ötəri və öz dilini, millətini düşmən tutmaqdan ötəri mədəniyyətin dalınca gedirlərsə, heç getməsələr yaxşıdır". (7,s.178)

Əsərin digər hissəsində müəllif Bahadırın dili ilə millətin qeyrətini, təsübünü çəkməyi təbliğ edir: " İndi ancaq anlamışam: millətin fikrini biz çəkməyəndə bəs kim çəkəcəkdir? Biz yazmayanda, kim yazacaqdır?- Bəs belə! - Bahadır deyib Sultanın boynundan qucaqladı, - indi bildim ki, qeyrət meydanında tək deyiləm.(7,s.180)

N.Nərimanov azərbaycanlıların soy adının da ruslaşdırılmasının əleyhinə çıxaraq milli soy adların qəbul edilməsini müdafiə etmişdir. O, "Əsli və Kərəm" tamaşası haqqında öz yazısında Kərəm rolunun ifaçısı Sarabskini tənqid edərkən, onun soy adının milliləşdirilməsi haqqında yazırdı: "Cənab Sarabski (indi, şükür Allaha, Sarablı)" (7,s.389)

N.Nərimanov sovet hakimiyyətinin ilk illərində yüksək vəzifəli sovet və partiya işçilərinə qarşı mübarizə apararaq onların Azərbaycan ailələlərini onların təzyiqlərində qorumuşdur. N.Nərimanov bu məsələ barədə belə yazmışdır: "Daha bir hadisə məni vadar etdi ki, ətrafımdakılara Azərbaycanın taleyini həll edənlərə diqqət yetirim. Bir dəfə məşhur hörmətli bir qadın gözü yaşlı yanıma gəlib ailəsinin namusunu qorumağı xahiş edir. O aşağıdakıları danışdi:
"Hökumət üzvü M.D.Hüseynov qızıma evlənməyi təklif etmiş, lakin qızım ona rədd cavabı verib başqa birisinə, elə onun yoldaşına ərə getməyə hazırlaşır. İndi hər gecə EFKA-nın (EFKA fövqəladə komissiya (ÇK)) agentləri evimə girib axtarış aparır və mənim evimdə gələcək kürəkənimi axtarırlar. Uşaqlar tamam əsəbi olublar və demək olar ki, gecələr yatmırlar. Mən bildirirəm ki, bu, M.D.Hüseynovun işləridir, xahiş edirəm məni müdafiə edin və s. və i.a.". Onu

sakitləşdirib Hüseynovu yanıma çağırdım və bu əhvalatı ona danışdım. O qıpqırmızı oldu, başını aşağı saldı və mənim qəti xəbərdarlığımdan sonra dedi:
"Arxayın olun, daha bu təkrar olmayacaqdır".

Bir müddət keçdikdən sonra yenə bu qadın gəlib onu daha heç kimin narahat etmədiyini bildirdi və mənə təşəkkür eldi.

Bu əhvalat məni belə bir sual üzərində düşünməyə məcbur etdi, mən kimlərlə işləyirəm və Azərbaycanın taleyi kimlərin əlindədir". (7,s.420-421)

N.Nərimanov Azərbaycan milli adət- ənənəsini, mentalitini başa düşməyən kommunist rəhbərlərini baş kəsən adlandırmişdir. "Şirvaniyə məktub"unda N.Nərimanov yazır: "Mənə çatdırdılar ki, yoldaş Mavrin təmizləmə haqqında məruzə edərkən belə deyib: " Azərbaycanda müsəlman içərisində möhkəm əqidəli kommunist yoxdur"... Mən şəxsən yoldaş Mavrini xüsusi başkəsən-kommunist qrupuna aid edirəm. Qolotyapovlardan hər şey gözləmək olar. Məsələn, başkəsən-kommunist partyaya yazılmış kəndliyə sual veririr: "Əgər görsən ki, sənin arvadın tanış olmayan kişi ilə gəzir, onda sən nə edərsən?". Kəndli cavab verir: " Hər ikisini öldürürəm". Başkəsən-kommunist qərar verir: "Rədd ol partiyadan, o bilmir ki, indi azadlıqdır və qadın istədiyi yad kişi ilə gəzə bilər". Başkəsən-kommunist... inqilabın qızğın çağında nə edibsə, heç nə ilə hesablaşmadan eynilə təkrar etmək istəyir." ( 23, s. 598-599)

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində əhaliyə qarşı müsadirə adı ilə soyğunçu siyasət yerindən kommunist rejimini də N.Nərimanov kəskin tənqid etmişdir. Müsadirə adı altında xalqın namusuna toxunan reyimi N.Nərimanov aşağıdakı fikirlərlə ifşa etmişdir: "Bu müsadirə haqqında fars vo türk qəzetləri yazmağa başladı və onlar qeyd edirdilər ki, bolşeviklər müsəlman qadınlardan zorla tumanlarını (yubkalarını) alıb, əldən-ələ ötürürdülər (bu isə qadının namusuna toxunmaq demək idi) və s." (7,s.432)

N.Nərimanov dövlət orqanlarında çalışan rus, erməni, yəhudi rəhbərlərin yerli dili bilməmələrini, məktəblərdə yerli əhalinin az sayda təmsil olunmasını da sərt tənqid etmişdir. N.Nərimanov bu məsələlər barədə yazırdı: "Aşağıda mən bəzi statistik məlumatlar göstərirəm ki, bunlar Mərkəzin etimadını qazanmış məsul yoldaşların müstəmləkəçilik siyasətini daha yaxşı əks etdirir. Azərbaycanın paytaxtında türklər Bakı Sovetinin qulluqçularına istər-istəməz şifahi və yazılı şəkildə müraciət etdikdə, bu müraciət rus dilində olmalıdır, belə ki, ruslar, yəhudilər və ermənilər türk dilində danışmırlar. Mən bildirirəm ki, Dövlət Duması olanda türk əhalisi belə sıxıntıya məruz qalmırdı.

Bəs, Bakı qəzasında yerləşən 76 türk kəndinin əhalisi öz işləri üçün şəhərə gəlib və Bakı Sovetinə müraciət etdikdə necə təəssürat yaranır? Bəs, türklər üçün məktəblərin və uşaq evlərinin sayı? Lakin hər şeydən dəhşətlisi təqaüdçü tələbələrin sayıdır: 30 rus vo 5 türk. Daha dəhşətlisi isə bu məsul yoldaşların fəhlə uşaqlarına münasibətidir. Fabrik-zavod-şagirdlik məktəbləri adlanan təhsil ocaqlarının sayı 17, burada rus uşaqlarının sayı 1192, müsəlman fəhlələr üçün isə - 26. Məgər bütün bunlar yol. Kirova, Mirzoyana bəlli deyil? Məgər Mirzoyan və başqalarının bu cür cinayətkar siyasətini müdafiə edən Ruhulla Axundov və ona bənzər türklər bunu hiss etmirlər'? Ürəkdə bu ədalətsizliyi dərk edən türk işçiləri nə üçün bunu edirlər? (7,s.453)

Kommunist ideologiyası ateist, yəni allahsız ideologiya olmasına baxmayaraq, bu ideologiyaya inanmış N.Nərimanov dinə qarşı kəkin, zorakı mübarizəyə qarşı çıxaraq, hətta bəzi hallarda dinin müdafiəçisi kimi çıxış etmişdi. Məsələn, N.Nərimanov kommunist rejimi daxilində müsəlman ziyalılarına qarşı irəli sürülən ittihamlardam olan panislamızmi dolayı yolla müdafiə edərək yazırdı: "Hətta Moskvada 20-ci ildə tatar kommunistlərinin ikinci qurultayında mən demişdim: "Panislamist hərəkatı yoxdur, lakin əgər müvəqqəti hal kimi yaranmış olsa, biz gərək Qərbi Avropada kapital hökmranlığını məhv etmək üçün ondan da istifadə edək. Lakin bu hərəkata bizim rəhbərliyimiz ona görə zəruridir ki, bu hərəkat öz məqsədinə nail olduqdan sonra inqilabımızın inkişafına mane olmasın".(7,s.449)

Bəzi tədqiqatlar var ki, bunlar N.Nərimanovun sırf ideoloji baxışlarını özündə əks etdirir və buna da hər bir şəxs öz siyasi dünyagörüşünə uyğun münasibət bəsləyə bilər. Məsələn, A.Hacıyeva 1994-cü ildə "N.Nərimanovun nəzəri-fəlsəfi irsində dinə münasibət" mövzusunda dissertasiya müdafiə edib ki, bu tədqiqat işinə də ateistlər və dindarların, yaxud dinə hörmətlə yanaşanların fərqli münasibət bəsləmələri təbiidir.(11,s.66)

N.Nərimanovun baxışlarındakı ziddiyyətlər haqqında M.S.Ordubadi belə yazırdı:"...o kommunizm məsələlərində bir çox mürəkkəb və qarmaqarışıq fikirlər meydana atırdı...Onun nəzəriyyəsində kommunizm ilə islamiyyəti barışdırmaq fikri mühüm yer tuturdu."(19, 6 dekabr 1991)

**N.Nərimanovun imam Hüseynlə bağlı fikirləri**

*" Bu, öz gücsüzlüyünü bilərək Məhəmmədin qanunlarını pozan, hamını və hər şeyi qızılla ələ almaq istəyən Yezidə qarşı mərdi-mərdanə çıxış etmiş adamın həyatından bütöv bir faciədir." (7,s.447)*

Azərbaycan Xalq Cümhuriyyəti XI bolşevik ordusu tərəfindən işğal olduqdan sonra islam dininə qarşı mübarizə kommunist rejiminin yerirdiyi anti-azərbaycan siyasətinin tərkib hissəsi idi. Bolşevik rəhbərlərin əmri ilə Aşura günü təşkil olunan toplantıların gülə baran edilməsinə qarşı N.Nərimanov açıq mübarizə aparmışdır. O dini fanatizmə qarşı zorakı metodlarla deyil, təbliğat, başa salma yolu ilə mübarizənin tərəfdarı idi. Onun aşağıdakı fikrləri bu mübarizəni özündə əks etdirir: "Hökumət başında oturanları bacarıqsızlığı üzündən "Şaxsey- Vaxsey" matəm günləri zamanı qızıl əsgərlərin güllələrindən zərər çəkmiş fars fəhlələrini də danışmağa qoymadılar. Sollar sevindilər: Nərimanov yoxdur, beləliklə, bu il EMKA-da matəm günləri zamanı yürüşlərin qadağan edilməsi haqqında məsələ qaldırmaq olar... Mən qəti olaraq repressiya əleyhinə idim, lakin bununla belə, biz məscidləri gəzib qara camıatı dilə tuturduq ki, küçələrdə özlərinə işgəncə vennəsinlər. Bir nəticəsi oldumu? Qəti surətdə bildirirəm ki, nəticəsi oldu.

Ən "sol" yoldaşın, Qarayevin yanında, məsciddə çox nüfuzlu bir molla bu günlərdə küçələrdə özlərinə işgəncə verənlərin hərəkətlərini möhkəm tənqid etməyə başladı. Lakin buna baxmayaraq bu il özlərinə işgəncə verənlər oldu. Nə qədər ki, bu dindar kütlənin inkişaf səviyyəsini yüksəltmək yolu ilə onun bu matəm günlərinə mömin olan, lakin özünə işgəncələrdə iştirak etməyən hər hansı ziyalı müsəlman kimi yanaşmalarına nail olmamısınız, elə də olacaqdır.

N.Nərimanov İslam tarixində baş vermiş hadisəyə öz münasibətini aşağıdakı şəkildə bildirmişdi: "Min ilərdir ki, bədbəxt, avam müsəlman kütləsi (şiə məzhəbli) Məhəmmədin ən sevimli nəvəsi imam Hüseynin işgəncəli ölümü günü matəm yürüşü keçirir və ən dəhşətli şəraitdə düşmənlərin əlinə keçən Hüseyn və onun ailəsinə məhəbbət və rəğbət əlaməti olaraq əsil dindar avam ünsürlər bu və ya digər yolla bu hadisələrə öz münasibətlərini bildirirlər.(7,s.446)

Bu, öz gücsüzlüyünü bilərək Məhəmmədin qanunlarını pozan, hamını və hər şeyi qızılla ələ almaq istəyən Yezidə qarşı mərdi- mərdanə çıxış etmiş adamın həyatından bütöv bir faciədir.(7,s.447)

N.Nərimanov kommunist rəhbərlərin İmam Hüseynə qarşı təhqiredici çıxışlarına qarşı da mübarizə apararaq onun müdafiə etmişdir. Bu münasibətlə o belə yazmışıdr: “Yeri gəlmişkən, burada qeyd etmək lazımdır ki, fars fəhlələrinin iclaslarından birində Azərbaycan Respublikasının başçısı Ağamalıoğlu Hüseyni qorxaq kimi xarakterizə etmişdi ki, buna görə fəhlələr onu məzəmmət etmişdilər. Qorxaq o deyil ki, yetmiş nəfər pis silahlanmış adamla on dəfə artıq qüvvətli olan düşmənlə döyüşür, odur ki, sol qrupdan qorxub işin əsil vəziyyətini bildirmir və bununla da partiya üzvlərini aldadır, onları fəhlə-kəndli respublikasında qızıl əsgər güllələrindən qanı tökülən fəhlələrə qarşı silahlandırır. Qorxaq odur ki, vəzifəsindən ötrü alçaqcasma yalan danışır, lakin imam Hüseyn tabe olsun və öz vicdanını qızıla satsın deyə Yezid bütöv bir vilayəti idarə etməyi ona təklif edirdi. O bunu etmədi: həlak oldu.

Ağamalıoğlu və Musabəyov yoldaşların tarixi belə başa düşməsi nə kimi nəticələr verdi?

Kirov və Mirzoyan onlara heç kimə qəti surətdə heç bir narahatlıq gətirməyən matəm yürüşünü bu il qadağan etmək olarmı sorğusu ilə müraciət etdikdə onlar dedilər: “Olar”. Nəticədə - əsgərlər və Balaxanıdan olan fars fəhlələri arasında silahlı toqquşma. Musabəyov həlak olmuş fəhlələrin ailələrində olmuş və son dərəcə əsəbi fəhlə kütləsinin əhatəsində bildirmişdi: “Buna kim icazə vermişdir, mən təhqiqat təyin edəcəyəm və müqəssirlər cəzalarına çatacaqlar...” Bəli, yalnız vəzifələrindən ötrü kommunizm ideyasını yaymaq istəyənləri cəzalandırmaq lazım idi. Lakin MK-nın birinci qərarının əvəzinə yeni qərar çıxannaq nəyə lazım idi, yəni toqquşmadan sonra: yürüşə mane olmamaq. (7,s.447)

N.Nərimanovun yuxarıda qeyd olunan fikirləri sübut edir ki, Azərbaycan da sovet işğalından sonra kommunist rəhbərlikdə yüksək vəzifələr tutmasına baxmayaraq başqalarından fərqli olaraq öz şəxsi mənafeyini güdməmiş, xalqın mənafeyini müdafiə etmişdir. Məhz buna görə də Azərbaycan xalqı bu gün onun xatirəsini əziz tutur, onun kommunist rejimi daxilində mübarizəsinə yüksək dəyər verir.

İstifadə edilmiş ədəbiyyat

--------------------------------

**Azərbaycan dilində**


1. Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı. "Elm". 2008. 696 səh. + 40 səh. illüstrasiya.
2. Abdullayeva S. Rusiyada Nəriman Nərimanov haqqında kitab buraxılıb 525-ci qəzet 05.03.15
3. Həsənov H.Ə. Nəriman Nərimanovun milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı: Elm, 2005. 248 s.
4. Heydər Əliyev mədəni irsimizin keşiyində".I kitab.Bakı, 2001, səh.271
5. İbrahimli F.F. Azərbaycan kəndində sosial-siyasi proseslər (1920-1930).Bakı 1996.
6. Köçərli F. Nəriman Nərimanov.Bakı, Azərbaycan SSR EA,1965,339 s.
7. Nərimanov Nəriman. Seçilmiş əsərləri. Bakı, "lider nəşriyyatı", 2004,496 s.
8. Qasımov M. Xarici dövlətlər və Azərbaycan (Aprel işğalından SSRİ yaradılana qədərki dövrdə diplomatic- siyasi münasibətlər). Bakı,Qanun, 1998, 356 s.
9. Qəhrəmanov B. Doktor Nərimanov. Bakı, Azərnəşr, 1990, 55 s.
10. Zülfüqarlı M.P. Azərbaycanı kimlər idarə edib? (may 1918- oktyabr 2003) Bakı, qanun, 2006, 136 s.
11. Zülfüqarlı M.P.Azərbaycan tarixi. TARİXŞÜNASLIQ (1920-1991-ci illər) Dərslik. Bakı 2017, 486 s.
12. "Aydınlıq" qəz. Bakı (azərb.dilində)
13. "Azadlıq" qəz. Bakı (azərb.dilində)
14. "Azərbaycan" qəz. Bakı (azərb.dilində)
15. "Azərbaycan SSR EA Xəbərləri" Tarix, Fəlsəfə və Hüquq.
16. "Xalq" qəz., Bakı (azərb.dilində)
17. "Kommunist "qəz., Bakı ( azərb. dilində)
18. "Millət" qəz. Bakı (azərb.dilində)
19. "Tarix" qəz. Bakı (azərb.dilində)
20. http://atv.az/news
21. modern.az


**Rus dilində**


22. Нариманов Н.Н. Избраные произведения: в3-х томах.т.1.-Баку: Азернешр, 1988,-376 с.

23. Нариманов Н.Н. Избраные произведения: в3-х томах.т.2.-Баку: Азернешр, 1989,-768 с.
24. Агасиев В. Одесские страницы: ( Одескийпериод жизни и деятельности Наримана Нариманова). Баку, Азернешр, 1981, 89 с.